Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Ukraynaya yeni zərbələr endirib

Sentyabr 17, 2026




Kiyevə dron hücumu

Sentyabrın 17-də Rusiya Ukraynanın Kiyev, Odessa və digər şəhərlərinə raket və dron hücumlarını bərpa edib. Hücumlardan bir neçə saat əvvəl ABŞ Konqresi Rusiyaya yeni sanksiyalar paketini qəbul edib.

Ukrayna prezidenti **Volodimir Zelenski** Rusiyanın Ukraynaya növbəti ballistik raket və dron hücumu ilə eyni vaxtda ABŞ Nümayəndələr Palatasının bu qanunu qəbul etməsini "rəmzi hadisə" adlandırıb.

O, Rusiyanın səkkiz vilayətdə mülki və enerji infrastrukturunu, Kiyev və Odessada yaşayış evlərini vurduğunu bildirib. Uşaqlar daxil olmaqla, 10-dan çox insan yaralanıb.

Ukraynanın xarici işlər naziri **Andriy Sibiqa** Rusiyaya qarşı sanksiyalar layihəsinin qəbulunu alqışlayıb, Moskvanın Ukraynaya davam edən hücumlarına sərt cavab adlandırıb.

Sibiqa tam embarqo, Rusiyanın "kölgə donanması"na qarşı məhdudiyyətlər, ölkənin hərbi-sənaye kompleksinə əlavə sanksiyalara çağırıb.

Kiyev meri **Vitali Kliçko** paytaxtda uşaqlar daxil olmaqla, 18 nəfərin yaralandığını bildirib. Təkrar dron zərbəsi inzibati binada yanğına səbəb olub.

Yerli hakimiyyət orqanlarına görə, Rusiyanın gecə saatlarında Odessaya zərbəsindən ikisi uşaq olmaqla, altı nəfər yaralanıb, çoxmənzilli yaşayış binalarına, fərdi evə və infrastruktura ziyan dəyib.



Символічно, що ухвалення Палатою представників Конгресу США санкційного законопроєкту Ліндсі Грема відбулося в ніч чергової російської атаки балістикою, іншими ракетами й дронами проти України. Знову під ударами була цивільна інфраструктура, є пошкодження у восьми регіонах. Росіяни обстріляли енергетику на Сумщині та Одещині. В Києві та Одесі були влучання по звичайних житлових будинках. Більше десяти людей поранено, зокрема діти. Частину госпіталізовано до лікарень. У багатьох громадах були пожежі.

Саме законопроєкт Ліндсі Грема та інші сильні санкційні кроки партнерів проти джерела цієї війни, проти Росії, – це надзвичайно сильний інструмент, який може зупинити цю терористичну війну та привести Росію до необхідності встановити мир. Санкції мають бути сильними, щоб уся робота заради миру, і зокрема наші спільні з Америкою, Європою та іншими друзями дипломатичні зусилля, спрацювали. Дякую членам Палати представників, сенаторам, лідерам

## Ukraynanın dron zərbələri

Rusiya rəsmiləri isə Ukraynanın dron hücumunun Yaroslavl şəhərindəki neft emalı zavoduna ziyan vurduğunu bildiriblər.

Krasnodar diyarında dron qalıqları neft emalı zavodunda yanğına səbəb olub. Xəsarət alan olmayıb.

**Zelenski** Yaroslavl neft emalı zavoduna hücumu təsdiqləyib. Onun sözlərinə görə, Ukrayna Təhlükəsizlik Xidməti Rusiyanın cənubunda, Ukrayna sərhədi yaxınlığındakı Rostov vilayətində hərbi aerodroma da zərbə endirib, üç təyyarə və üç helikopter zədələnib.

ABŞ prezidenti **Donald Tramp** sentyabrın 14-də iki ölkə arasında enerji atəşkəsi əldə olunduğunu elan etmişdi. Ancaq tərəflərdən heç biri belə bir razılaşmanın mövcudluğunu təsdiqləməyib.

Tramp bundan əvvəl də Zelenskini Rusiyanın dizel yanacağı infrastrukturunu hədəfə almağı dayandırmağa çağırmışdı. O, dünyaya ziyan vuran dizel yanacağı qıtlığının yaranmasında bu hücumları günahlandırmışdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur